AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ

# QƏRAR

№ 5/6

Bakı şəhəri 11 fevral 2015-ci il

AMEA-nın yeni strukturu haqqında

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 dekabr tarixli, 386 nömrəli Fərmanı ilə Azərbaycan Milli Elmlər Akademiyasının Nizamnaməsi təsdiq edilmişdir. Eyni zamanda, həmin Fərmanın 2.1.bəndinin 2.1.3. yarımbəndində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə AMEA-nın strukturunu və işçilərinin say həddini təsdiq etmək və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat vermək tapşırığı verilmişdir.

Dövlət başçısının Fərmanının icrasını təmin etmək məqsədilə AMEA prezidentinin 09 yanvar 2015-ci il tarixli 13 nömrəli sərəncamı ilə İşçi qrupu yaradılmışdır. İşçi qrupu AMEA-nın yeni strukturunun layihəsini hazırlayaraq AMEA Rəyasət Heyətinin müzakirəsinə təqdim etmişdir.

AMEA-nın yeni strukturunun layihəsini müzakirə edərək Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. AMEA-nın yeni strukturu bəyənilsin (əlavə olunur).
2. AMEA-nın yeni strukturu təsdiq edilməsi üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilsin.
3. Qərarın icrasına nəzarət AMEA-nın vitse-prezidenti, akademik İbrahim Quliyevə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi akademik Rasim Əliquliyev